<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>AZH 150, Azərbaycan tarixi, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Tarix və Arxeologiya departamenti</td></tr>
<tr><td>Proqram<br>(bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/26-ci tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris<br>edən müəllim (lər)</td><td>Ceyran Məmmədova</td></tr>
<tr><td>E-mail:</td><td>j.mammadova@khazar.org<br>mammadovaceyran1994@gmail.com</td></tr>
<tr><td>Telefon:</td><td></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td></td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Tələbələrlə razılaşdırılan vaxtlarda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü<br>(məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">Əsas:<br>1. Müəllimin mühazirəsi.<br>2. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). M. Adullayevin elmi redaktorluğu ilə. Bakı, Bakı Universiteti 2019.<br>3. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.S. Əliyarlının redaktəsi ilə. Bakı, Çıraq. 2009, 872 s.<br>4. Azərbaycan tarixi, I cild (Ən qədim zamanlardan XX əsrədək). Z. Bünyadovun və Y. Yusifovun redaktəsilə. Bakı, 2005.<br>5. Azerbaycan tarixi ( Ilk çağlardan XX. yüzyıl başlarına kadar), Mahmud İsmailov, IQ Kültür Sanat Yayıncılık.<br>Əlavə:<br>1. Azərbaycan Tarihi (Millet, Devlet ve Siyaset). Nesib Nesibli. Ankara, Altınordu, 2019.<br>2. Salmaz Qaşqay. Manna dövləti. Bakı, 1993.<br>3. Türk Kafkası’nda Siyasi ve Etnik Yapı (Eski Çağlardan Günümüze Azerbaycan Tarihi). İsmail Mehmetov. İstanbul, Ötüken, 2009.</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Azərbaycan tarixi kursu qədim dövrlərdən müasir dövrədək Azərbaycan ərazisində baş vermiş əsas tarixi hadisə və prosesləri əhatə edən fundamental tədris fənnidir. Kurs çərçivəsində bu coğrafiyada minilliklər boyu formalaşmış siyasi, iqtisadi və sosial münasibətlər, dövlətçilik ənənələri və ictimai inkişaf mərhələləri sistemli təhlil olunur. Tədris programının tərtibi zamanı son illərdə yaşanan tarixi hadisələrə xüsusi diqqət ayrılmışdır. Bununla yanaşı, yeni dövr tədqiqatçıların elmi araşdırmaları və müasir metodoloji yanaşmalar proqramın məzmununa daxil edilmişdir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="2">Kursun məqsədi vətənimiz haqqında tələbələrdə mühüm məlumatları ötürmək, tariximizdə yaşanan hadisələrin qaranlıq tərəflərini aydınlatmaqdır. Bu coğrafiyada</td></tr>
</table>

<table>
<tr><td></td><td colspan="3">yaşanan siyasi, iqtisadi və sosial hadisələrin təhlili vasitəsi ilə tələbələrin dünya görüşünü və təhlil etmə qabiliyyətlərini inkişaf etdirməkdir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələrdə:<br>- Fənnin öyrənilməsi nəticəsində Azərbaycan tarixi haqqında, dərin, hərtətəfli və obyektiv təsəvvür formalaşdıracaq<br>- Azərbaycanda dövlətçiliyin formalaşması və inkişafına təsir edən əsas amillər təhlil ediləcək<br>- Azərbaycan ərazisində mövcud olmuş dövlət qurumlarının tarixi mərhələləri araşdırılacaq<br>- Tarixi liderlərimizin apardığları xarici və daxili siyasəti haqqında məlumatları daha da genişlənəcək<br>- Müasir dövrdə baş verən hadisələr siyasi və iqtisadi yöndən təhlil ediləcək</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Yoxlama (quiz)</td><td>Aralıq imtahanı öncəsi<br>Final imtahanı öncəsi</td><td>10 bal<br>(5+5)</td></tr>
<tr><td>Tapşırıq (Təqdimat)</td><td>Aprel-May</td><td>10 bal</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr boyunca</td><td>5 bal</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr boyunca</td><td>5 bal</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>30 bal</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun</td><td>40 bal</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100 bal</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Yoxlama işi<br>İki yoxlama işi keçiriləcəkdir. Birinci yoxlama aralıq imtahanından öncə, ikinci yoxlama isə final imtahanından öncə keçiriləcəkdir.<br>Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>Təqdimat işinə aid qaydalar:<br>- Tələbələr müəllim tərəfindən onlara öncədən verilən mövzu əsasında fərdi şəkildə prezentasiyalarını təqdim etməlidirlər.<br>- Prezentasiya ən az 20 slayd ən çox 25 slayd olmalıdır.<br>- Hər tələbəyə təqdimat üçün 15 dəqiqə vaxt veriləcək.<br>- Prezentasiya mövzunu tam əhatə etməlidir, əks halda bal çıxılacaq.<br>Davamiyyət<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. Tələbə dərsdə 3 dəfə iştirak etmədiyi təqdirdə, davamiyyət balından bir bal çıxılacaq. 25%-dən artıq dərs buraxan tələbələr</td></tr>
</table>

| | |
|---|---|
| | imtahana buraxılmır.<br>**Dərsə gecikmə**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayıb yazılır. Buna baxmayaraq, tələbə dərsdə iştirak edə bilər.<br>**Aktivlik**<br>Dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi məşğələlərdə aktiv iştirak edən tələbə tam bal alacaqdır.<br>**İmtahanlar**<br>Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır. Aralıq imtahanı 1-13-cü mövzuları, final imtahanı isə 14-29-cu müvzuları əhatə edir.<br>**İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürülmələr qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>**Fənni bitirmək qaydası**<br>Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır. |

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | | **Mövzu №1 Azərbaycanda ibtidai icma:**<br>İbtidai icma dövrü haqqında anlayış. Azərbaycan ərazisində ilk insan məskənləri. Daş, Tunc və Dəmir dövru. İbtidai icma quruluşun dağılması.<br>**Mövzu №2 Azərbaycanda qədim dövlətlər:** Azərbaycan ərazisində yerləşən ilk tayfalar və dövlətlər (Aratta, Lullubi, Kutilər, Kassitlər, Zamus). Manna dövlətin ərazisi, əhalisi və hökümdarları. Midiya və Əhəməni imperiyası. Atropotena və Qafqaz Albaniyası (ərazisi, əhalisi, mədəniyyəti və siyasəti). | Müəllimin mühazirəsi.<br>2, səh. 5-31. |
| 2. | | **Mövzu №3 Erkən orta əsrlərdə Azərbaycan:**<br>Azərbaycan III-VII əsrlərdə. Atropoten ərazisi Sasani imperiyasının tərkibində. Azərbaycanda Sasinilərə qarşı üsyanlar. Arşakilər sülaləsi. Mehranilər sülaləsi. Girdman dövləti. Cavanşirin daxili və xarici siyasəti.<br>**Mövzu №4 Ərəb işğalı dönəmində Azərbaycan:**<br>Azırbaycanda Ərəb hakimiyyəti. Ərəb əsarətinə qarşı | Müəllimin mühazirəsi.<br>2, səh. 31-52; 3, səh. 245-280. |

| | | | |
|---|---|---|---|
| | | azadlıq mübarizəsi. Xürrəmilik hərəkəti. Babək. | |
| 3. | | **Mövzu №5 Azərbaycan xalqının etnogenezi:** Azərbaycana ilk türk axınları. Azərbaycan xalqının formalaşmasında islam dinin rolu. Azərbaycan xalqının yaranması. **Mövzu №6 IX-XIII əsrlərdə Azərbaycan:** Ərəb xilafətinin dağılması və Azərbaycanda müstəqil dövlətlərin yaranması. Azərbaycan Şirvanşahlar, Saci, Salari, Rəvvavi və Şəddadi sülalələrinin hakimiyyət dövründə. Rusların Bakı və Bərdəyə yürüşləri. Səlcuq türkləri və Azərbaycan. Azərbaycan Atabəylər dövləti. | Müəllimin mühazirəsi. 2, səh. 52-97. |
| 4. | | **Mövzu №7 XIII-XIV əsrlərdə Azərbaycan:** Azərbaycanda monqol əsarəti. Hülakülər dövləti. Qazan xanın islahatları. Toxtamış və Teymurun Azərbaycana yürüşləri. I İbrahimin daxili və xarici siyasəti. **Mövzu №8 Azərbaycanda Baharlı və Bayandurlu sülaləsi:** Qaraqoyunlu (Baharlı) hakimliyi. Baharlı sülaləsinin xarici və daxili siyasəti. Aqqoyunlu (Bayandurlu) hakimliyi. Uzun Həsənin xarici və daxili siyasəti. Sultan Yaqubun səltənət dönəmi. XV əsrdə Azərbaycanda, sosial-iqtisadi həyat, inzibati idarə sistemi və mədəniyyət. | Müəllimin mühazirəsi. 2, səh. 97-12;. 3, səh. 335-359, 375-407. |
| 5. | | **Mövzu №9 Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyət dönəmi:** Ərdəbil hakimliyi. Səfəvi düvlətinin yaranması. I Şah İsmayılın daxili və xarici siyasəti. I Tahmasibin xarici siyasəti və varislərinin səltənət dönəmi. Şah Abbasın dövründə həyata keçirilən yeniliklər. Azərbaycan torpaqlarının Osmanlıdan geri alınması. XVI-XVII əsrdə Azərbaycanın iqtisadi, sosial həyatı və mədəniyyəti. **Mövzu №10 XVIII əsrin ilk yarısında Səfəvilər dövləti. Nadirşah.** Səfəvilər dövlətinin zəifləməsi. I Pyotrun Azərbaycana yürüşləri. Şirvan bölgəsində siyasi və sosial vəziyyət. Azərbaycanda Nadir şahın hakimiyyət dövrü. | Müəllimin mühazirəsi. 2, səh. 124 -158; 3, səh. 419-462. |
| 6. | | **Mövzu №11 Azərbaycanda xanlıqlar dövrü:** Azərbaycan ərazisində xanlıqların yaranması. | Müəllimin mühazirəsi. 2, səh. 158 -178. |

| | | | |
|---|---|---|---|
| | | Xanlıqların daxili və xarici siyasəti. Azərbaycan torpaqlarının birləşməsi uğrunda mübarizə. Azərbaycan xanlıqlarının sosial və iqtisadi vəziyyəti. XVIII əsrdə Azərbaycan mədəniyyəti.<br>**Mövzu №12 Quiz 1:** | |
| 7. | | **Mövzu №13 Şimali Azərbaycan torpağlarının Rusiya tərəfində işğalı:**<br>Rusiya-Azərbaycan müharibəsi və nəticələri. I Rusiya-İran müharibəsi. Gülüstan müqaviləsi. II Rusiya-İran müharibəsi. Türkmənçay müqaviləsi. | Müəllimin mühazirəsi. 2, səh. 178-187; 3, səh. 596-607. |
| | | **Aralıq imtahanı** | |
| 8. | | **Mövzu №14 XIX əsrin 40-70-ci illərində Azərbaycanda həyata keçirilən islahatlar:**<br>Şimali Azərbaycanda iqtisadi vəziyyət. Kapitalist münasibətlərin yaranması və inkişafı. 60-70-ci illlərdə burjuazia islahatları. XIX əsrdə Azərbaycan mədəniyyəti.<br>**Mövzu №15 Azərbaycan XX əsrin əvvəllərində.**<br>XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət. Azərbaycan milli azadlıq hərəkatının yeni dövrü. 1905-1911-ci illərdə Cənubi Azərbaycanda azadlıq hərəkatı. I dünya müharibəsi illərində Azərbaycan. Fevral inqilabından sonra Şimali Azərbaycanda siyasi vəziyyət. 1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatı. 1918-ci il mart soyqırımı. XX əsrin əvvəllərində Azərbaycanda elm, maarif və mədəniyyət. | Müəllimin mühazirəsi. 2, səh. 187-260; 3, səh. 663 -665 |
| 9. | | **Mövzu №16 Azərbaycan Cümhuriyyəti (1918-1920):**<br>İstiqlaliyyət bəyannaməsinin bərpası və Azərbaycan dövlətçiyinin bərpası. Azərbaycan parlamentinin açılışı və fəaliyyəti. Azərbaycan Xalq Cümhuriyyətinin xarici və daxili siyasəti.<br>**Mövzu №17 Azərbaycan XX əsrin 20-30-cu illərində:**<br>Şimali Azərbaycanda Sovet rejiminin qurulması. Sovet işğal rejiminə qarşı üsyanlar. Azərbaycanın ərazi bütövlüyünün pozulması. DQMV-nin və Naxçıvan MSSR-in yaradılması. Azərbaycanda kütləvi repressiyalar. Təhsil, incəsənət və ədəbiyyat. Mədiniyyət xadimlərinə divan tutulması. | Müəllimin mühazirəsi. 2, səh. 260-310. |
| 10. | | **Mövzu №18 Azərbaycan ikinci dünya müharibəsi** | Müəllimin mühazirəsi. |

| | | | |
|---|---|---|---|
| | | **düvründə:** İkinci dünya müharibəsinin başlanması və müharibə edən dövlətlərin Azərbaycana dair planları. Faşizm üzərində qələbədə Bakı neftinin rolu. Cənubi Azərbaycan ikinci dünya müharibəsi illərində. **Mövzu №19 Tələbələrin təqdimatları:** | 2, səh. 310-327. |
| 11. | | **Mövzu №20 Azərbaycan SSR XX əsrin 45-60-cı illərində:** Yeni sənaye sahələrinin və mərkəzlərinin yaranması. 1948-1953-cü illərdə Azərbaycan əhalisinin Qərbi Azərbaycandan deportasiya edilməsi. Təsərrüfat sahələrində islahatlar. Mədəniyyət. **Mövzu №21 Tələbələrin təqdimatları:** | Müəllimin mühazirəsi. 2, səh. 327-336. |
| 12. | | **Mövzu №22 Azərbaycan SSR XX əsrin 70-80-ci illərdə:** Heydər Əliyevin hakimiyyətə gəlməsi. Azərbaycanda sənaye və kənd-təsərrüfatının inkişafı. Əhalinin sosial vəziyyəti. Mədəniyyət. Dağlıq Qarabağ probleminin ortaya atılması. Azərbaycanda xalq hərəkatı. **Mövzu №23 Tələbələrin təqdimatları:** | Müəllimin mühazirəsi. 2, səh. 336 -343. |
| 13. | | **Mövzu №24 Azərbaycan Respublikası XX əsrin 90-ci illərində:** SSRİ-in dağılma ərəfəsində Azərbaycanda siyasi vəziyyət. Qanlı yanvar. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi. Azərbaycanın BMT-yə və digər beynəlxalq təşkilatlara qəbul olunması. Xocalı soyqırımı. Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi. Əsrin müqaviləsi. Yeni parlamentin formalaşması. Azərbaycanın xarici və daxili siyasəti. **Mövzu №25 Tələbələrin təqdimatları:** | Müəllimin mühazirəsi. 2, səh. 343-365. |
| 14. | | **Mövzu №26 Quzi 2** **Mövzu №27 Tələbələrin təqdimatları:** | |
| 15. | | **Mövzu №28 Azərbaycan Respublikas 2000-2020-ci illərdə: İlham Əliyevin hakimiyyət dövrü.** Azərbaycanın daxili və xarici siyasəti. Aprel döyüşləri. Dağlıq Qarabağ uğrunda aparılan, 44 günlük müharibə. **Mövzu №29 Tələbələrin təqdimatları:** | Müəllimin mühazirəsi. 2, səh. 365-389. |
| | | **Final imtahanı** | |